# Xudafərində Azərbaycan bayrağı!



Oktyabrın 18-də Azərbaycanın Dövlət Müstəqilliyi günündə ikinci bir bayram sevinci yaşatdı bizə Azərbaycanın Ali Baş Komandanı və onun yenilməz Azərbaycan ordusu! 27 ildən çoxdur ki, Cəbrayılımızın mənəvi rəmzi kimi ürəyimizdə yaşatdığımız Xudafərin körpüsündə Azərbaycan bayrağının dalğalanması hər bir cəbrayıllının (və hər bir azərbaycanlının) qəlbini sevincdolu qürur hissi ilə doldurdu.

Ağdərədən olan iş yoldaşım Aydın Mustafayev bu xəbəri eşidən kimi mənə zəng etdi: "Təbrik edirəm, Şakir müəllim, Xudafərin alınıb. Səni həm də ona görə təbrik edirəm ki, Xudafərinin adını daşıyan "Xudafərin" qəzetini Cəbrayılın rəmzi və müqəddəs nişanəsi kimi hər dəfə böyük həvəs və cəfakeşliklə çıxardırsan", - dedi. Bunun ardınca az keçmiş ali təhsilli bacım qızı Həmayil də zəng etdi: "Şakir dayı, təbrik edirəm, qəzetinin adaşı olan Xudafərin düşməndən azad edildi", - dedi. Əmimiz qızı olan professor Nüşabə xanım Hacıyeva, xalam oğlu Mənsur Fətəliyev, əmimoğlu Şahin və başqaları da eyni xoş ovqatla məni təbrik etdilər.

Bəli, biz Cəbrayıl əhalisi Xudafərini Vətənimizin bütövlük rəmzi və Cəbrayılımızın mənəvi simvolu hesab etmişik. Xudafərinin adını daşıyan "Xudafərin" qəzeti məcburi köçkünlük dövründə bütün cəbrayıllıların birlik - dirilik həyatının nümayişi, dərdləşmə-dilləşmə yeri oldu, bu qəzetin səhifələrində uzaqdan-uzağa da olsa, bir-birimizlə "söhbətləşdik". "Xudafərin harayından qalan mən!.." devizi ilə vətənimiz Cəbrayılı və Cəbrayılın bir rəmzi olan Xudafərini könüllərimizdə yaşatdıq, bu gün çin olan ümidlərimizi heç vaxt ölməyə qoymadıq. Mənəvi dayağımız, sözü ilə könüllərimizin ağrı-acılarını ovundurub-sakitləşdirən, ürəyimizi boşaldan kürsümüz oldu "Xudafərin".

Gözümüz aydın, Cəbrayllılar! Cəbrayıl şəhəri və bir sıra kəndlərimiz işğaldan azad olunub. İnşallah ki, tezliklə bütöv Cəbrayılımız və Qarabağımız da beləcə mənfur düşmənlərdən təmizlənəcəkdir!

Gözünüz aydın, Xudafərinlilər və "Xudafərin"lilər!

Gözün aydın, doğma qəzetimiz "Xudafərin"! Şükür ki, üzərinə götürdüyün müqəddəs missiya kimi bizim gələcəyə inamımız, Xudafərinli və bütövlükdə Cəbrayıllı günlərimizə qovuşmaq ümidlərimiz doğruldu!

Yaxın gələcəkdə doğma Xudafərində - Cəbrayıl torpağında nəşr olunmaqla sən də məcburi köçkünlükdən qurtararsan, doğma qəzetimiz olan "Xudafərin"imiz!

"Xudafərin"imiz öz doğma yurdumuzda yurddaşlarımızın görüşünə gələr, oxucuların üzünə doğma Cəbrayılımızda, Xudafərinimizdə açılıb, "Salam, doğma yurdda xoş gördük sizləri" deyər!..

***Ş.ƏLİFOĞLU***

Kredo 2020.- 29 oktyabr.- S.14.